## 31 avqust Qubadlının işğalı günüdür

# Qubadlılılar doğma yurda qayıdacaqları günü səbirsizliklə gözləyirlər




Bəli, qubadlılılar doğma torpağa qayıdacaqları günü həsrətlə gözləyirlər. 26 ildir 30 mindən çox rayon əhalisi ölkəmizin 41 şəhər və rayonunda məcburi köçkün həyatı yaşayır. Lakin onlar öz doğma yurd-yuvalarına qayıdacaqlarına ümidlərini bir an belə itirməyiblər. Torpaqların erməni işğalçılarından geri alınması getdikcə asanlaşır. Ötən illər ərzində Azərbaycan xeyli inkişaf edərək öz iqtisadiyyatını, ordusunun gücünü daha da artırıb,



**Zəngəzur mahalının qədim yaşayış məskəni Qubadlı rayonu 26 il bundan əvvəl, 1993-cü il avqustun 31-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Anım günü münasibətilə rayon ictimaiyyəti nümayəndələri qubadlıların böyük bir hissəsinin məskunlaşdığı Sumqayıt şəhərindəki Şəhidlər xiyabanını ziyarət edəcək, onların məzarı üzərinə gül düzəcəklər.**

Ermənistan isə bütün sahələrdə iflasa uğrayıb, ordusu çöküb.

Məlumat üçün bildirək ki, Qubadlı qədim insan məskənlərindəndir. Pirlər, ibadətgahlar bu yerlərdə qədim məskunlaşma yerlərinin mövcud olduğunu göstərir. Bunu həm də tarixi bilinməyən qədim qəbiristanlıqlar, ayrı-ayrı yaşayış məskənləri yaxınlığından tapılmış maddi məişət nümunələri, əmək alətləri də təsdiq edir.

Ötən əsrdə Qubadlı dəfələrlə erməni işğalçı qüvvələrinin hücumlarına məruz qalıb (1915, 1918, 1920). Bu tarixlərdə, bütövlükdə, Zəngəzurla birlikdə Qubadlının kəndləri yandırılıb, dinc əhaliyə divan tutulub. Bununla belə, bütün çətinliklərə və azab-əziyyətlərə baxmayaraq, hər dəfə işğalçı erməni qoşunları torpaqlarımızdan qovulublar. 1988-ci ildən başlayaraq, Ermənistanla (120 km) və Dağlıq Qarabağla (45 km) sərhəddə yerləşən Qubadlı rayonuna hər iki tərəfdən təcavüzkar hücumlar başlayıb, dinc əhaliyə qarşı terror törədilməsi sistemli şəkildə davam etdirilib.

1993-cü il avqust ayının sonunadək davam edən 5 illik müharibə zamanı Qubadlı rayonu 238 nəfər şəhid verib. Onlardan 11 nəfəri Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülüb.

Laçın, Ağdam, Füzuli, Cəbrayıl işğal olunduqdan sonra faktiki yarımmühasirə vəziyyətinə düşən Qubadlı rayonu 1993-cü il avqust ayının 30-31-də erməni təcavüzkar qüvvələrinin işğalına məruz qaldı.

Rayonun 1,2 milyard ABŞ dolları dəyərində (1993-cü ilin qiymətləri ilə) şəxsi və ictimai mülküyyəti erməni işğalçıları tərəfindən talan və məhv edilib.

Bu gün Qubadlı rayonunun idarə, müəssisə, təşkilatları Bakı və Sumqayıt şəhərlərində, eləcə də Abşeron rayonunun ərazisində yerləşir. Fəaliyyət göstərən bütün idarə, müəssisə və təşkilatların işi Qubadlı Rayon İcra Hakimiyyətinin yaxından köməyi ilə yüksək səviyyədə təmin edilmişdir.

Rayonun məcburi köçkün əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün əhəmiyyətli tədbirlər görülmüşdür. Dövlət tərəfindən 1000-dən çox Qubadlı məcburi köçkün ailəsinə fərdi ev verilmişdir. Sumqayıtdakı 26-cı Məhəllədə yerləşən "Şəfa" sanatoriyası ərazisində 800 nəfərlik mərasim evi, 12-ci mik-



rorayon ərazisində 100 nəfərlik, 47-ci məhəllə ərazisində 150 nəfərlik mərasim evləri tikilmiş, zəruri avadanlıqlarla təmin edilərək məcburi köçkünlərin istifadəsinə verilmişdir. Eyni zamanda, "Şəfa" sanatoriyasının I və II mərtəbəsində olan 74 boş otaq və 1500-dən çox fərdi ev RİH-nin köməyi ilə təmir olunaraq məcburi köçkünlərə paylanmışdır. Rayon sakinlərinin mənzil-məişət şəraiti xeyli yaxşılaşdırılmışdır.

Hazırda Qubadlı rayonunda 20 min 500 nəfər əmək qabiliyyətli əhali var. Ümumiyyətlə, son illərdə rayon üzrə 4 mindən yuxarı yeni iş yeri açılmış, 1612 sahibkarlıq subyekti yaradılmışdır.

Rayonda 32 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Bu təhsil müəssisələrində 739 nəfər müəllim 9528 nəfər şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Son illər ərzində 21 məktəb binası yenidən tikilərək əsaslı təmir edilmişdir.

Son illər rayonun tarixində əlamətdar hadisələrlə yadda qalmışdır. Prezident cənab İlham Əliyevin iştirakı ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi donanmasında "Qubadlı" adlı yeni təchizat gəmisinin istismara verilməsi, Beynəlxalq Müəllimlər Günü Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Ramana qəsəbəsində müasir tələblərə cavab verən Qubadlı rayon Xanlıq kənd ümumi orta məktəbinin açılış mərasimləri keçirilmişdir.

2018-ci il dekabrın 24-də məhz Prezident öz ad günündə Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə Abşeron rayon Sumqayıt stansiyası ərazisində yeni salınmış şəhərciyin açılış mərasimində, bundan bir neçə gün sonra isə Sumqayıt şəhər 12-ci mikrorayon ərazisində məcburi köçkünlər üçün inşa edilmiş şəhərciyin açılışında iştirak etmişlər. Həmin qəsəbələrin əsas kontingenti Qubadlı rayonundan olan məcburi köçkünlərdir. Abşeron rayonunun Sumqayıt stansiyası adlanan ərazisində salınmış şəhərcikdə 357 ailə, Sumqayıt şəhər 12 mikrorayon ərazisində salınmış şəhərcikdə isə 521ailə məskunlaşmışdır.

Rayon Mərkəzi Xəstəxananın poliklinikası müasir səviyyədə tikilərək bütün zəruri avadanlıqlarla təmin edilmişdir. Xəstəxananın poliklinikası şöbəsi 3 səhiyyə müəssəsi ilə birlikdə məcburi köçkünlərə tibbi xidmət göstərilməsi işini davam etdirir.

Sumqayıt Regional Mədəniyyət və Turizm İdarəsinin rayon nümayəndəliyi keçirdiyi tədbirlərin daha mütəşəkkil aparılmasına səy göstərir. Nümayəndəliyin yerləşdiyi "28 May" Mədəniyyət evinin binası əsaslı təmir edilmişdir. Burada 271 nəfərlik iclas zalı, ulu öndər Heydər Əliyevin xatirə güşəsi yaradılmış, mərkəzi kitabxana və Mahmudlu kənd uşaq musiqi məktəbi üçün otaqlar ayrılmışdır

2016-cı ilin Aprel döyüşlərində qüdrətli Azərbaycan Ordusu bir daha sübut etdi ki, işğal olunmuş ərazilərimizi çox qısa müddətdə düşməndən azad etməyə qadirdir. Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Aprel döyüşlərində fərqlənən Həmidov Şükür Nəriman oğluna "Azərbaycan Respublikasının Milli Qəhrəmanı", Bərxudarov Mais Şükür oğluna general-mayor hərbi rütbəsi və Qasımov Faiq Qaçay oğluna isə I dərəcəli "İgidliyə görə" medalı verilmişdir. Bu, qubadlılılar üçün qürurverici bir faktdır.

Bu gün qubadlılıların bir arzusu var: doğma yurda qayıtmaq. Möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı müdrik siyasət tezliklə onların bu həsrətinə son qoyacaqdır.

***M. MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***